# MƏXFİLİK SİYASƏTİ

## 1. Giriş

1.1. toyda.az platformasına ("**Veb-sayt**") xoş gəlmişsiniz! Veb-sayt olaraq Veb-sayt istifadəçilərinin (**"İstifadəçi"** və ya "**Partnyor**" və ya **"Siz"**) gizliliyinə önəm veririrk və Veb-saytdan istifadə zamanı İstifadəçilərə məxsus fərdi məlumatların məxfiliyinin təmin olunmasını öhdəmizə götürürük.

1.2. Bu Məxfilik Siyasəti ("**Siyasət**") İstifadəçilərə məxsus fərdi məlumatların hansı qaydada toplandığını, istifadə olunduğunu, ötürüldüyünü, mühafizə edildiyini və saxlandığını göstərən publik Müqavilədir.

1.3. Siz Veb-saytın təklif etdiyi xidmətlərdən (**"Xidmətlər"**) istifadə edərək, bu Siyasət üzrə nəzərdə tutulmuş şərtlərlə razılaşırsınız.

## 2. Haqqımızda

2.1. Veb-sayt Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada təsis olunmuş "INCODE" MMC ("**Şirkət**" və ya **"Biz"**) tərəfindən istifadəyə verilmişdir.

2.2. Veb-saytın idarə olunması üzrə səlahiyyətli şəxslər Şirkət, müvafiq olaraq Şirkətin rəhbərliyi və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Şirkətlə əmək münasibətlərinə daxil olaraq əmək müqaviləsi bağlamış fiziki şəxslərdir. Bu o deməkdir ki, Biz Sizə məxsus Fərdi Məlumatların işlənmə qaydalarını qanunvericiliyə uyğun qaydada müəyyənləşdirən tək səlahiyyətli nümayəndələrik.

## 3. Terminlər

*Bu Siyasətin məqsədləri üçün;*

3.1. Şirkət - Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada təsis olunmuş "INCODE" MMC;

3.2. Qanunvericilik - Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi;

3.3. Veb-sayt – "INCODE" MMC tərəfindən yaradılmış toyda.az platforması;

3.4. Xidmətlər - Şirkət tərəfindən Veb-sayt vasitəsilə kiber aləmdə göstərilən xidmətlər;

3.5. Çərəzlər - Veb-saytın cihazda bu Veb-saytın ziyarət tarixçəsini və digər təfərrüatlarını ehtiva edən kiçik mətn faylları;

3.6. İstifadəçi – Veb-saytda nəzərdə tutulmuş xidmətlərdən istifadə etmək istəyən 18 yaşına çatmış fiziki şəxslər və ya cütlüklər və ya hüquqi şəxslərin qanuni təmsilçiləri və ya digər səlahiyyətli şəxsləri

3.7. İstifadəçi hesabı - Xidmətlərdən istifadə etmək üçün İstifadəçilər üçün yaradılmış unikal hesab;

3.8. Partnyor – Veb-saytda özünün təklif etdiyi xidmətlərə dair məlumatlarını yerləşdirən fiziki və ya hüquqi şəxslər;

3.9. Partnyor hesabı - Partnyorun Veb-sayt vasitəsilə təklif etdiyi xidmətləri Veb-saytda yerləşdirmək üçün yaratdığı unikal hesab;

3.10. Cihaz - kompüter, mobil telefon və ya rəqəmsal planşet kimi Xidmətə daxil ola bilən istənilən cihaz deməkdir.

3.11. Şəxsi Məlumat - Xidmətləri təmin etmək və daha da təkmilləşdirmək üçün Veb-sayt tərəfindən Partnyor və İstifadəçilərdən toplanılan istənilən növ məlumatlar;

## 4. Şəxsi Məlumatların dairəsi

4.1. Fərdi məlumat;

4.1.1. İstifadəçilər üçün fərdi məlumatlar dedikdə, İstifadəçilərin adı, soyadı, cinsiyyəti, e-poçt ünvanı, qeydiyyatı tamamlanmış hesaba dair şifrə və digər məlumatlar, mobil telefon nömrəsi, kateqoriyalar üzrə etdiyi sifarişləri, fotoqraf tərəfindən təqdim edilən foto və video linkini, onlayn dəvətnamədə əks edilən məlumatları, büdcə planlayıcısında əks edilən məlumatlar, hesabat vərəqində əks edilən məlumatlar, qonaqların yerləşməsi barədə olan məlumatları və bu qəbildən olan sair məlumatlar başa düşülür.

4.1.2. Partnyorlar üçün fərdi məlumatlar dedikdə, Partnyorun və ya onun nümayəndəsinin adı, soyadı, e-poçt ünvanı, qeydiyyatı tamamlanmış hesaba dair şifrə və digər məlumatlar, müvafiq xidmət kateqoriyası, mobil telefon nömrələri, partnyorluq kateqoriyaları, şirkətin adı və qısa təsviri, loqo və banner məlumatları, ünvan, menyu və qiymətləri və bu qəbildən olan sair məlumatlar başa düşülür.

4.2. İstifadə məlumatı dedikdə, Xidmətin istifadəsi nəticəsində və ya Xidmətin infrastrukturunun özündən avtomatik olaraq toplanan məlumatlar başa düşülür. Bu cür məlumatlara Veb-saytdan istifadə zamanı açılan səhifələrin ardıcıllığı, Veb-sayta daxil olan cihaz, cihaza dair məlumatlar, IP adresi, istifadə olunan əməliyyat sistemi, brauzer proqramı, ziyarət tarixçəsi və müddəti və bu qəbildən olan sair məlumatlar aiddir.

## 5. Veb-saytın səlahiyyətləri və öhdəlikləri

5.2. Veb-saytın idarə olunması üzrə səlahiyyətli şəxslər İstifadəçi və Partnyorların sorğularına cavab vermək məqsədilə, həmçinin Xidmətlərlə bağlı və digər əlaqəli yeniliklərin sizə təqdim olunması üçün lazımı məktubların e-poçt ünvanınıza göndərə bilər.

5.2. Veb-saytın idarə olunması üzrə səlahiyyətli şəxslər idarə olunması üzrə səlahiyyətli şəxslər Xidmətlərin icrasını tam təmin etmək üçün və ehtiyac yaranan digər hallarda Sizin mobil telefon nömrələrin zəng edə bilər.

5.3. Bu Siyasət Şəxsi Məlumatlara şamil olunur. Bu zaman həmin məlumatların doğruluğuna dair məsuliyyəti Siz daşıyırsınız.

5.4. Əgər bu Siyasət sizi qane etmirsə, Siz Şəxsi Məlumatların toplanması üçün verdiyiniz razılıqları geri ala bilərsiniz. Bu Siyasət və Siyasət üzrə verdiyiniz razılıq, Şəxsi məlumatları toplamağımız üçün əsas qanuni bazadır.

5.5. Siz həmçinin Şəxsi məlumatlarınızın tərəfimizdən emal edildiyinə, üçüncü şəxslərə ötürülməsinə, emal edilmənin əvvəlcədən müəyyənləşdirilmiş məqsədlərə uyğun istifadəsinə dair məlumat əldə edə, qüvvədə olan qanunvericiliyə və məqsədlərə zidd şəkildə emal ilə bağlı isə etiraz edə bilərsiniz.

5.6. Veb saytımızdan istifadə etdiyiniz zaman Biz Sizin elektron cihazlarınıza elektron platformalarımızdan istifadənin təmin edilməsi məqsədilə "Kukilər" yerləşdiririk.

5.7. Şəxsi məlumatlarınızı sadəcə saytımızdan və xidmətlərimizdən istifadə ərzində, lazımi müddət ərzində, bildirdiyimiz məqsədlərə çatmaq üçün saxlayırıq, həmin müddətlərin başa çatması ilə fərdi məlumatları saxlamağımıza əsas olacaq heç bir səbəb olmadıqda İstifadəçi və Partnyor öz hesabının silinməsini tələb edərək məlumatları məhv edilməsini tələb edə bilər.

**6. Şəxsi Məlumatlardan istifadə**

*Şirkət Şəxsi Məlumatlardan aşağıdakı məqsədlərlə istifadə edir:*

6.1. Veb-saytın idarə olunması;

6.2. Endirim, təşviqat kampaniyalarının, bonusların, promokodların idarə edilməsi və Sizə çatdırılması;

6.3. Fərdi məlumatların və hüquqpozmalar çərçivəsində hüquq-mühafizə orqanlarına dəstəyin göstərilməsi;

6.4. Həm daxili, həm də üçüncü tərəflər vasitəsilə məxfi şəkildə statistik təhlillərin, bazar araşdırmalarının aparılması və tərtib edilməsi;

6.5. Hesabınızın, elektron kabinetinizin yaradılması və idarə edilməsi;

6.6. İstifadəçilərlə kommunikasiyamızın daha da yaxşılaşdırılması, Xidmətlərimizin inkişaf etdirilməsi;

6.7. Xidmətlər, sifarişlər, və Veb-sayt ilə əlaqəli digər əməliyyatların idarə edilməsi;

6.8. Veb saytımızın səmərəliliyinin artırılması və İstifadəçi təcrübəsinin daha da təkmilləşdirilməsi;

6.9. Yeniliklər, yeni xidmətlər, təkliflər barəsində İstifadəçilərin xəbərdar edilməsi;

6.10 Zərurət yarandıqda yeni biznes fəaliyyətlərinin idarə edilməsi;

6.11. Hüquqazidd əməliyyatlar, dələduzluq və bu kimi digər cinayətkarlıq fəaliyyətlərinin qarşısının alınması;

6.12. İstifadəçilərə xəbərlərin göndərilməsi, veb saytdan istifadədə dəstək göstərilməsi və digər məqsədlər üçün fərdi məlumatların yığılmasını və işlənilməsi;

6.13. Xidmətlərin hərtərəfli və keyfiyyətli şəkildə icrası;

6.14. Daxili yoxlamaların həyata keçirilməsi;

6.15. Məlumatların təhlili, istifadə meyllərinin müəyyənləşdirilməsi, reklam kampaniyalarının effektivliyini müəyyənləşdirmək və Xidmətləri, marketinqimizi və təcrübəmizi qiymətləndirmək və inkişaf etdirmək.

**7. Şəxsi Məlumatların ötürülməsi**

7.1. Sizin tərəfinizdən və ya üçüncü şəxslər tərəfindən bizə daxil olan Şəxsi Məlumatlarınız tərəfimizdən Sizə yüksək səviyyədə xidmət göstərilməsi üçün istifadə olunacaqdır.

7.2 Şəxsi Məlumatlarınız qanunla bizdən tələb olunduğu hallarda müvafiq dövlət qurumlarına tərəfimizdən göndərilə bilər.

7.3. Hər hansı qanun pozuntusu şübhəsi olarsa, qanunsuz fəaliyyətin qarşısının alınması və Sizin təhlükəsizliyinizi təmin etmək üçün bəzi informasiyaları müvafiq qurumlarla paylaşa bilərik.

7.4. Partnyorlara dair əlaqə məlumatları Partnyorların öz razılığı ilə tərəfimizdən Veb-saytda yerləşdirilərək İstifadəçilərə açıq paylaşılacaqdır.

7.5. Şəxsi Məlumatları Şirkət aktivlərinin satılması və ya Xidmətlərimizin hamısını və ya bir hissəsini başqa bir şəxsin satın alması və ya bu barədə danışıqlar zamanı paylaşa və ya ötürə bilərik.

7.6. Sizə Xidmətlərlə bağlı yeniliklər və promosyonlar təklif etmək üçün Şəxsi Məlumatlarınızı Ortaqlarımıza ötürə bilərik.

7.7. Sizin razılığınızla Şəxsi Məlumatlarınızı başqa məqsədlər üçün açıqlaya bilərik.

**8. Şəxsi məlumatlarınızın saxlanması**

8.1. Şirkət Şəxsi Məlumatlarınızı yalnız bu Siyasətdə göstərilən məqsədlər üçün lazım olduğu müddətdə saxlayacaqdır. Şəxsi məlumatlarınızı qanuni öhdəliklərimizi yerinə yetirmək üçün lazım olan miqdarda saxlayacağıq və istifadə edəcəyik, müqavilələrimizə və siyasətlərimizə əməl olunmasını təmin edəcəyik.

8.2. Şirkət daxili analiz məqsədləri üçün istifadə məlumatlarını da saxlayacaqdır. İstifadə məlumatları qısa müddətə saxlanılır, yalnız bu məlumatlar təhlükəsizliyimizi artırmaq və ya Xidmətimizin funksionallığını yaxşılaşdırmaq üçün istifadə olunursa, bu cür məlumatları daha uzun müddət saxlaya bilərik.

## 9. Şəxsi Məlumatların məhv edilməsi

9.1. Sizin haqqınızda topladığımız Şəxsi Məlumatları silmək və ya silmək üçün bizdən kömək istəmək hüququnuz var.

9.2. Veb-sayt Sizə məxsus Şəxsi Məlumatları Veb-saytdan silmək imkanı verə bilər.

9.3. İstədiyiniz zaman hesabınıza daxil olaraq və Şəxsi Məlumatlarınızı idarə etməyə imkan verən hesab parametrləri bölməsinə daxil olaraq məlumatlarınızı yeniləyə, əlavə edə və ya silə bilərsiniz. Bizə təqdim etdiyiniz hər hansı bir şəxsi məlumatı əldə etmək, düzəltmək və ya silmək üçün Bizimlə əlaqə saxlaya bilərsiniz.

9.4. Ancaq unutmayın ki, qanuni öhdəliklərimiz və ya bunun üçün qanuni əsaslarımız olduqda müəyyən məlumatları saxlamağımız lazım ola bilər.

9.5. Sizə aid fərdi məlumatların təhlükəsizliyinə dair şübhə və qüsur yarandığı hallarda, fərdi məlumatlarınızın mühafizəsi üçün ağlabatan bütün zəruri və qabaqlayıcı tədbirləri həyata keçirəcəyik.

## 10. Dəyişikliklər

10.1 Biz Siyasətə vaxtaşırı dəyişikliklər edə bilərik. Məxfilik Siyasətinin yeni forması Veb-saytda yerləşdikdən sonra qüvvəyə minir.

10.2.Məxfilik Siyasətinin yeni formasını dərc etdikdən sonra veb-saytın davamlı istifadəsi İstifadəçinin bütün dəyişiklikləri qəbul etməsi və razılaşması deməkdir. İstifadəçi verilən dəyişikliklərlə razılaşmırsa, veb-sayta girişdən imtina etməli, və xidmətlərindən istifadəni dayandırmalıdır.

## 11. Digər Veb saytlara bağlantılar

11.1. Xidmətimizdə bizim tərəfimizdən idarə olunmayan digər veb saytlara bağlantılar ola bilər. Üçüncü tərəf bağlantısını izləsəniz, həmin üçüncü tərəfin veb saytına yönləndiriləcəksiniz. Ziyarət etdiyiniz hər bir saytın Məxfilik Siyasətini nəzərdən keçirməyinizi tövsiyə edirik.

11.2 Üçüncü tərəflərə məxsus veb-saytların və ya xidmətlərin məzmununa, məxfilik siyasətinə və ya təcrübəsinə nəzarət etmirik və ya heç bir məsuliyyət daşımırıq.

**12. Əlaqə**

12.1. Əlavə məlumat üçün və ya bu Məxfilik Siyasəti ilə bağlı hər hansı bir sualınız varsa, aşağıdakı elektron poçt ünvanı vasitəsilə bizimlə əlaqə saxlayın:

Email:

Poçt: ______

Telefon: _____

| |
|---|
| ❑ *** Mən, Məxfilik Siyasətini oxudum və qəbul edirəm.** |